**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.254**

**BƏNÖVŞƏ RZAYEVA***

# AZƏRBAYCANIN GÖRKƏMLİ SƏNƏT USTALARI NAXÇIVAN TEATRINDA

*Məqalədə Naxçıvan teatrının yaranması, formalaşması ilə bağlı məlumat verilir. Bu sənət məbədinin yaranması elə bir dövrə təsadüf etmişdir ki, bu teatrın yaranmasına və fəaliyyət göstərməsinə bəzi qüvvələr şübhəylə yanaşırdı və burada teatrın fəaliyyət göstərməsinə inam çox az idi. XX yüzilliyin lap əvvəllərinə kimi Naxçıvan teatrının yerli əməkdaşları bu sənət ocağının sönməsinə imkan verməyib, əksinə onun fəaliyyət göstərməsinə nail oldular. Belə bir şəraitdə Azərbaycanın görkəmli səhnə ustaları da bu teatrın fəaliyyətə başlamasına öz köməkliklərini göstərirdilər. Belə bir vaxtda bəstəkar Zülfüqar Hacıbəyovun Naxçıvan teatrı ilə əlaqə yaratması və onun bilavasitə Naxçıvana gəlişi bu teatr əməkdaşları ilə birlikdə tamaşalar hazırlaması, xalqla teatr arasında teatr sənətinə bir sevgi və bağlılıq yaratdı. Həmin dövrdə teatrın fəaliyyəti nəticəsində əsərlərin səhnələşdirilməsi tamaşaya qoyulması xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycan teatr səhnəsinin əvəzsiz sənətkarlarından Mirzağa Əliyev, Sidqi Ruhulla, Hacıbəyovların böyük oğlu Zülfüqar Hacıbəyov, dahi bəstəkar Üzeyir Hacıbəyov Naxçıvanda musiqili teatr sənətinin mənəvi inkişafını yeni bir tərəqqiyə çatdırmışlar. Bu böyük sənətkarlar Naxçıvan teatrında bir sıra əsərləri tamaşaya qoyaraq, xalqla teatr arasında əlaqələri möhkəmləndirməyə nail olmuşlar. Bu teatrının yaranmasında və inkişafında Eynəli bəy Sultanov, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Əliqulu Qəmküsar kimi böyük sənətkarların xidmətləri əvəzsizdir. 1922 –ci illərin sonları Naxçıvanda qadınların teatr səhnəsində görünməsi, kişilərin qadın rolu oynamasına son qoyulmasını mədəni bir inqilab kimi qiymətləndirilir. Ümumiyyətlə xalqın teatrla sıx bağlılığı onların həm təfəkkür tərzini göstərirdi, həm də mənəvi cəhətdən formalaşmasına müsbət təsir idi. Beləliklə də Naxçıvan teatrında Azərbaycanın görkəmli sənət ustalarının və yerli teatr əməkdaşları tərəfindən əsərlərinin tamaşaya qoyulması bu qədim mədəniyyət diyarında musiqi sənətinə olan estetik tələbatı xeyli gücləndirmiş və səhnəyə olan marağı və istəyi artırmışdı. Beləliklə də Azərbaycanın görkəmli səhnə ustalarının silsilə şəkilində bu sənət ocağı ilə mütəmadi olaraq əlaqə saxlaması, Naxçıvan teatrının bir sənət məbədi kimi formalaşması və inkişafı məqalədə öz əksini tapır.*

***Açar sözlər:**Naxçıvan, teatr, aktyor, ziyalı, görkəmli sənətkarlar, tamaşa,rejissor, əsər.*

## Giriş

Naxçıvan tetrının bir sənət ocağı kimi formalaşmasında Azərbaycanın görkəmli ziyalılarının köməkliyi əvəzssiz olmuşdur. Hələ XX yüzilliyin 18-19-cu illərinədək böyük çətinliklərlə üzləşmiş Naxçıvan teatrının əməkdaşları onun sönməsinə imkan verməyib öz gücləri hesabına bu sənət məbədinin fəaliyyətini davam etdirməyə nail olmuşlar.

Naxçıvan teatrının formalaşmasında və tərəqqisində musiqi əsərlərinin tamaşaya qoyulması, xüsusilə böyuk estetik əhəmiyyət daşıyır. Azərbaycan teatr səhnəsinin əvəzssiz sənətkarlarından Mirzağa Əliyev, Sidqi Ruhulla, Hacıbəyovların böyük oğlu Zülfüqar Hacıbəyov, dahi bəstəkar Üzeyir Hacıbəyov Naxçıvanda musiqili teatr sənətinin mənəvi inkişafını yeni bir tərəqqiyə çatdırmışlar. Bu böyük sənətkarlar Naxçıvan teatrında Ü. Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", "O olmasın bu olsun" kimi opera və operettaları uğurla tamaşaya qoyaraq, xalqla teatr arasında əlaqələri möhkəmləndirməyə nail olmuşlar.

## Əsas məzmun

Naxçıvan teatrının yaranması və inkişafında Eynəli bəy Sultanov, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Əliqulu Qəmküsar kimi böyük sənətkarların əvəzssizdir. Bu böyük sənət məbədinin inkişafı yönümündə naxçıvanda fəaliyyət göstərən sənətkarlar daim mübarizə apararaq teatrın inkişafı sahəsində iyirminci yüzilliyin ilk cərəyanının sonunda böyük nəticə əldə edə bilmişlər.

1924-cü ildə Naxçıvan ziyalıları sovetləşmənin ilk illərində "Ümid" dram cəmiyyətini yenidən təşkil edir və məktəbliləri və həvəskarları bu cəmiyyətə cəlb edirlər. Həmin il avqust ayının 12-də Mirzə Fətəli Axundzadənin "Hacı Qara" pyesini ayın 28-də isə Nəcəfbəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsini tamaşaya qoyurlar. Bu tamaşaların hazırlanmasına maarif orqanları ilə yanaşı, gənclər təşkilatı da rəhbərlik edirdi. Bu dövrdə naxçıvanlı qadınların teatr səhnəsinə cəlb olunması, kişilərin qadın rolu oynamasına son qoyulur. Bu görülən tədbirlərin nəticəsində 1922-ci ildə

Azərbaycan Kominist Bolşeviklər Partiyasının III qurultayının qərarı ilə Naxçıvanda Dram teatrosu və qadınlar üçün klub və qəzalarda oxu komaları açılır.

Çox keçmir ki,Naxçıvan teatrı ilə daim əlaqə saxlayan Səməd Mövləvi Təbrizdən Bakıya və sonra isə Naxçıvana gəlir.O, ömrünün sonuna kimi Naxçıvan teatrında çalışmış və az müddət ərzində istedadlı aktyor və rejissor kimi məhşurlaşaraq geniş tamaşaçı kütləsinin rəğbətini qazanır. Böyük sənətkarın belə xidmətləri nəzərə alaınaraq Səməd mövləviyə Azərbaycan Respublikasının xalq artisti fəxri adı verilir.

Naxçıvan teatrının 40 illik yubleyinə hazırlıqla əlaqədar 1923-cü ildə Naxçıvan Vilayət Xalq Maarif Komisarlığının təşəbbüsü ilə teatr binası əsaslı təmir edilir və ona Dövlət Dram Teatrı adı verilir. Teatrın repertüarına "Ölülər", "Pəri cadu", "Laçın Yuvası", "pəhləvani və s. əsərlər daxi idi[1, s.81-82].

Milli şüurun sürətlə inkişafında musiqi əsərlərinin tamaşaya qoyulması mühümm rol oynayır. Bu baxıdan da görkəmli sənətkarların əsərlərinin Naxçıvan teatrında tamaşaya qoyulması zamanı bu sənətin həm dramatik sahəsi həm də musiqi sahəsi vəhdət təşkil edərək gözəl bir sintez yaradırdı. Xalqın teatrla sıx bağlılığı onların həm təfəkkür tərzini, həm də mənəvi cəhətdən formalaşmasına müsbət təsir göstərirdi. Beləliklə də Naxçıvan teatrında musiqi əsərlərinin tamaşaya qoyulması bu qədim mədəniyyət diyarında musiqi sənətinə olan estetik tələbatı xeyli gücləndirmiş və səhnəyə olan marağı və istəyi artırmışdır.

1909-1910-cu ilin əvvəllərindən başlayaraq, Zülfüqar Hacıbəyli və Üzeyir Hacıbəylinin Naxçıvanda olması və onun mədəni həyatının inkişafında xidmətləri əhalinin musiqiyə olan məhəbbət və rəğbətini xeyli artırmışdı. Bu dövrdə Naxçıvn teatrı yaradıcılığının sonrakı mərhələlərində böyük naliyyətlər əldə edir.

1919-cu ildə ingilislər Naxçıvanı işğal etdikləri zaman Kərim xan İrəvanskinin şəhər qubernatorunişlədiyi dövr ərzində şəhərin ümumi vəziyyətində olduğu kimi teatrın da fəaliyyəti xeyli zəiflədi. Lakin 1920-ci il avqust ayının 24-dən başlayaraq Naxçıvan teatrı öz vəziyyətini bərpa edə bildi. Həmin il Ə. Haqverdiyevin "Bəxtsiz cavan"pyesi, az sonra isə Ş. Saminin "Dəmirçi Gavə" əsəri tamaşaya qoyuldu. Həmin vaxt gözəl rejissor həm də məlahətli səsi olan Səməd Mövləvi Təbrizdən Naxçıvana qayıtması nəticəsində teatrın fəaliyyətində canlanma yarandı. Onun fəaliyyəti nəticəsində "leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib", "Şeyx Sənan", Hamlet", "Sevil", "Nadir şah" əsərləri tamaşaya qoyuldu.

Teatrın fəaliyyəti illərində yeni-yeni istedadlı gənclər səhnəyə həvəs göstərirdilər. Belə gənclərdə Firuzə Əlixanova, Zəroş Həmzəyeva, Xədicə Qazıyeva, Roza Cəfərxanova və b. Səhnəyə qədəm qoyurlar.

Bakıda görkəmli aktyor, tərcüməçi və teatr tənqidçisi kimi tanınan Mehdi bəy Hacınski 1921-1922-ci illər ərzində Naxçıvanda ərzaq komisiyasının sədri kimi işlədiyi vaxt teatrında tarzən Tapdıq Hüseynovla birlikdə fəaliyyət göstərmiş və çox əhəmiyyətli rol oynamışlar. 1922-ci ildən başlayaraq Naxçıvan teatrı Bakı "Tənqid-təbliğ" teatrı ilə sıx əlaqə saxlayır. Bu teatrın repertüarında "Necə qan ağlamasın", "Orda elə, burda belə", "Məşədi evlənir" və digər tamaşalar qoyuldu. Növbəti illərdə bu teatr bir neçə dəfə Naxçıvan teatrına qastrol səfərlərinə gəlmiş rənga-rəng repertüarlarla çıxışlar etmişlər [2, s.67].

Görkəmli aktyor və rejissor Əli Xəliliov Naxçıvan teatrında uzun müddət çalışmaqla yanaşı,1920-ci ildən 1935-ci ilə qədər bu teatrın direktoru olmuşdur. Onun Naxçıvan teatrının inkişafı sahəsində yazdığı kitablar teatrın fəaliyyəti haqqında verilən məlumat baxımından əvəzssizdir. Tanınmış sənətkarın bu teatrın fəaliyyətiilə bağlı qələmə aldığı "Naxçıvan teatrının tarixi" adlı əsərində yerli və Azərbaycanın digər görkəmli sənətkarlarının fəaliyyətləri işıqlandırılmışdır. Naxçıvan teatrının fəaliyyətindən bəhs edilən bu kitabda Naxçıvana Muxtariyyət verilməsi günündə Muxtar Respublikanın şərəfinə teatrımızda vaxtaşırı böyük konsertlərin keçirilməsi bu teatrın maliyyə cəhətdən çətinliyinin qarşısını alırdı.

1924-cü ilin fevral ayında Muxtariyyətin ilk illərində Zaqafqaziya Federativ respublikasınnı mərkəzi icraiyyə komitəsinin sədri Mixa Tsxakaya Naxçıvana gəldi və teatrın binasında dövrün fəallarınnı yığıncağında çıxış edir və qonağın şərəfinə konsert təşkil olunur. Onun göstərişi ilə

Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin hesabından teatra maddi yardım üçün pul göndərilmişdir.

Görkəmli sənətkar Kazım Ziyanın Naxçıvana dəvət edilməsindən sonra teatrın repertüarı genişlənmiş və yeni aktyor qüvvələri yetişdirilməsinə böyük əmək sərf edilmişdir.

Məlum olduğu kimi rusiyada çarizminin devrildiyi dövrdən sonra, imperiyanın bir çox bölgələrində olduğu kimi naxçıvanda da iki hakimiyyətlilik hökm sürməyə başladı. Bu dövrdə yaranan bir sıra kapitalist dövlətlər belə bir ziddiyyətli vəziyyətdən istifadə etməklə bu qədim mədəniyyət ocağı olan Naxçıvana yiyələnmək istəyirdilər. Bunu görən bir sıra Azərbaycan milli burjaziyanın, demokratik fikirli ziyalılarının diplomatik səyləri nəticəsində Naxçıvanda Müsəlman Milli Şurası təşkil olundu. Həmin dövrdən təxminən iki aydan sonra Naxçıvan ingilislər tərəfindən işgal olunur. Bu vəziyyətdən istifadə edən mənfur erməni daşnakları bu fürsətdən istifadə etməklə Naxçıvana yiyələnmək üçün canfəşanlıq edib qırğınlar törətməyə başladılar. Belə bir çətin vəziyyətdə Naxçıvan diyarı Azərbaycan SSR-in tərkibində Muxtar Respublika kimi qalmaq imkanı qazanır və öz tarixi taleyini həll etməyə nail olur. Muxtariyyət hüququ Naxçıvanın çox acınacaqlı bir şəraitində əldə edilmiş naliyyəti idi. Naxçıvanın Muxtar Respublika statusu onun sonrakı dövrlərdəki taleyini, ərazi bütövlüyünün qorunub saxlanılmasında və eləcə də maarif və mədəniyyətinin inkişaf etdirilməsində çox mühüm rol oynadı. Naxçıvan Muxtar Respublika statusu alana qədər yerli mürtəce qüvvələr aktyorlara tamaşa hazırlamağa imkan vermirdilər.Belə çətin və məhdudiyyətlərə dözməyən Naxçıvan teatrının bir sıra artistlərindən Əkbər Abbasov, Rza Təhmasib, Əli xəlilov, Rza İsfəndiyarlı, Həmid Mahmudov və başqaları 1918-ci ildə qaragüruhçuların, daşnakların zülmünə dözə bilməyib Təbrizə və Bakıya getməyə məcbur oldular. Buna görə də 1924-cü ildə Naxçıvan Teatrında Muxtariyyətin ilk dövrlərində həm aktyor sarıdan həm də teatrda dekorasiya, avadanlıq müxtəlif tamaşaların hazırlanması üçün böyük çətinliklər yaranmışdı.

Bu dövrlərdə Azərbaycanın əməkdar artisti, görkəmli kino-rejissor Abbas Mirzə Şərifzadə naxçıvan teatrı ilə sıx əlaqə saxlayır və Naxçıvan teatrında H.Cavidin "Şeyx Sənan" əsərini tamaşaya hazırlayır. O, yerli aktyorlarla birgə bu əsəri yüksık səviyyədə tamaşaçılara təqdim edir. Qeyd edək ki, görkəmli aktyor kino rejissor həmin ərəfədə N.Nərimanovun "Nadir şah" əsərini teatrsevərlərəı təqdim edir.

1926-cı il iyul ayının 10-da görkəmli sənətkar Sidqi Ruhulla Bakıdan böyük bir qrup aktyorlarla Naxçıvana gəlir və Naxçıvanın teatrsevərlərinə yeni tamaşalar təqdim edir. O, eyni zamanda bir qrup yerli teatr əməkdaşları ilə birgə Ordubada gedib orada tamaşlar hazırlayır.

Həmin dövrdə sovet dövləti "Kəndə doğru" şüarını irəli sürmüş və məqsəd isə müttəfiq respublikalarda maarif və mədəniyyəti inkişaf etdirmək eləcə də bu yolla da onlara öz siyasətini xalq arasında yaymaqdan ibarət idi. Belə bir şüar altında incəsənət işçilərinin fəaliyyəti geniş idi. Belə ki 1927-ci il may ayında Azərbaycan Dövlət Dram Taeatrının bir qrup görkəmli sənətkarları: Rza Təhmasib, Sidqi Ruhulla, Ülvi Rəcəb, Rza Əfqanlı, İsmayıl Hidayətzadə, Bağır Cabbarzadə, Aslan Tahirov, Əkbər Şəfi, Molla Bəbirli, Cavahir xanım, Zəki Dadaşov, Yeva Xanım və bir sıra digər aktyorlar Naxçıvana qastrola gəlirlər. Onu da qeyd edək ki, həmin dövrdə Azərbaycan Dövlət Dram Teatrı Naxçıvan teatrını hamiliyə götürmüşdür. Onların repertüarında Türk, fransız, ingilis, rus, alman həyatından alınmış dünya teatrının inciləri Naxçıvan səhnəsində nümayş etdirilirdi. Bu dövrdə Naxçıvan teatrı səhnəsində "Müfəttiş", "İki Yetimə", "Hacı Qara", "Hamlet", "Tələbələrin kələyi", "Otello", "Ölülər", "Qaçaqlar" kimi teatr tamaşaları yerli teatrsevərlərin şüurunda dərin iz buraxmışdır. Bu böyük səstkarların tamaşaya qoyduqları əsərlərdə sənət aləminə gətirdikləri yeniliklərə məftun olan naxçıvanlılar dəfələrlə ayağa qalxıb böyük sənətkarları alqışlamış və onlara yeni uğurlar diləyirdilər [3, s.].

1926-cı il iyul ayının 10-da Azərbaycanın bir qrup görkəmli aktyoru Naxçıvana gəlir və Naxçıvan teatrının fəaliyyətinə öz köməkliklərini göstərirlər. Həmin dövrdə S.Ruhullah naxçıvanda teatr sənətinin yaranmasına çalışır və Ordubadda Namiq Kamalbəyovun "Qaplan Paşa" faciəsini tamaşaya qoyur. Bütün bu çətinliklərə baxmayaraq Naxçıvanda yerli teatr əməkdaşları öz fəaliyyətini dayandırmır və xalqla teatr arasında mənəvi bağlılıqları möhkəmləndirməyə çalışırdılar.

1930-cu illərdə Bakı Türxk Bədaye Teatrosunun yaradıcı heyəti Naxçıvana gəlir. Onlar Naxçıvan teatrına yardım etməklə yanaşı burada C.Cabbarlının "Almaz və Sevil" əsərlərini uğurla tamaşaya

qoyurlar. Truppanın tərkibində A.M Şərifzadə, Ü.Rəcəb, R.Təhmasib, M. Davudova Ə. Qurbanov, M.Şamxalov, İ. Hidayətzadə, M.Əliyev, R. Darablı, R. Əfqanlı, M.Mərdanov kimi sənətkarlar var idi. Qastrol zamanı göstərilən "Aydın", "Od gəlini ", "Sevil", "Oqtay eloğlu", "1905-ci ildə", "Dəli Knyaz", "Şeyx Sənan", "Namus", "Hamlety" və başqa tamaşalar teatrsevərlər tərəfindən rəğbətlə qarşılanmış bu tamaşalara minlərlə tamaşaçı baxmışdır.

Azərbaycan Bədaye Teatrının yaradıcı kollektivi 29 iyul 1930-cu il tarixində "Aydın" pyesi ilə Naxçıvanda qastrol tamaşalarını göstərməyə başlayır. Tamaşada Aydın rplunu Abbas Mirzə Şərifzadə, Gültəkin rolunu Zeynəb xanım, Dövlət bəy rolunu M.Şamxalov, Surxay rolunu K.Şeyxov, Susanna rolunu İsmət xanım, Balaxan rolunu A. Rzayev, Novruzbəy rolunu Ərəboğlu, Mirzə Cavad rolunu Əlili və böyükxanım rolunu Tanailidili ifa etmişlər.

Naxçıvanda teatr işinin yenidən qurulmasında Azərbaycanın görkəmli aktyorları Naxçıvana qastrol səfəri edərkən gənc istedadlı teatr həvəskarlarını bu sənətə cəlb edilməsi işinə yaxından köməklik göstərmişlər. Yerli tamaşaçıların teatra olan yüksək tələblərini nəzərə alıb və onların zövqünə uyğun olaraq yeni repertüarla Naxçıvana qastrol səfərləri təşkil edirdilər. Belə qastrollar vaxtaşırı yerli mətbuatda işıqlandırılır və tamaşalar haqqında resenziyalar dərc edilirdi.

1931-ci il aprelində Azərbaycan səhnəsinin görkəmli xadimi S. Ruhullanı Naxçıvan Dövlət Dram Teatrına direktor və baş rejissor təyin edilməsi, teatrın inkişafında yeni bir mərhələnin başlanğıcı oldu. Elə həmin il aprel ayının 5-də S.Ruhullanın qruluşunda A. Şirvanzadənin "Namus" əsəri uğurla tamaşaya qoyulur. Tamaşada Rüstəm rolunu S. Ruhulla oynayaraq bir qrup yerli gəncləri də teatra cəlb etmişdir. Onun fəaliyyəti nəticəsində Naxçıvan Teatrının binası əsaslı şəkildə təmir edilir və yeni dekor, butaforiya sexləri təşkil olunmuşdur. Gənclik illərindən səhnəyə bağlanmış bu görkəmli aktyor,teatr truppaları ilə kəndləri, şəhərləri gəzib dolaşır öz sənəti ilə xalqa sədaqətlə xidmət edirdi.

S. Ruhullah həm də 1932-ci ildə Ordubad teatrının təməlini qoyan sənətkardır. Elə həmin il S. Ruhulla, Q.Qurbanov və Ə. Dadaşlının müəllifləri olduqları "Qurtuluş" pyesini Ordubad teatrında tamaşaya qoyur.

Böyük səhnə ustası A.M. Şərifzadə 1936-cı ildə yenidən Naxçıvana qastrolda olarkən H.Cavidin "Şeyx Sənan" əsərini tamaşaçılara ərmağan edir. Bu tamaşa tamaşaçılar tərəfindən hərarətlə alqışlanmışdır. A.M.Şərifzadə 1936-cı iln yayında Naxçıvanda olarkən ilk çıxışı "Hamlet" tamaşası ilə başlanır.

Belə böyük səhnə ustasının Naxçıvana hər dəfə gəlişi Naxçıvan teatrında dramatik,psixoloji cəhətdən bədii səviyyəli əsərlərin tez-tez səhnəyə qoyulmasına səbəb olurdu.

1943-cü ilin avqustunda M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının bədii biriqadası 15 gün müddətində Naxçıvana qastrol səfərində olmuşlar. Həmin briqadanın tərkibində Azərbaycan SSRİ-nin xalq artistləri Fatma Qədiri, Kazım Ziya, əməkdar artistlər Haşim Kələntərli, Əjdər Sultanov, Hökümə Qurbanova daxil idi. Həmin müddət Naxçıvan Dram Teatrında qastrol səfərində olan bu birqadaya Azərbaycan Dövlət Dram Teatrının direktoru, əməkdar incəsənət xadimi S. Turabov rəhbərlik edirdi. Birqadanın üzvləri Naxçıvan teatrında qastrol zamanı S.Vurğunun "Vaqif", "Fərhad və Şirin", M. İbrahimovun " Məhəbbət", S. Rəhmanın "Toy" əsərlərini tamaşaya qoyurlar.

Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsi rəisinin 25 fevral 1943-cü il ta rixli 123 nömrəli əmrinə əsasən Məmməd Cavadov Naxçıvan Dövlət Musiqili Dram Teatrına direktor və dirijor vəzifələrinə təyin edilir. Məmməd müəllimin Naxçıvanla bağlı "ömür kitabında unudulmaz, ağrılı-acılı, eyni zamanda şirin xatirələrlə mədəniyyət tariximizdə silinməz izlər həmişə qalacaqdır. Onun yaradıcılığı mədəniyyətimizin zəngin səhifələr elə yer alır ki, bu qədim diyarın mədəniyyəti ilə bağlı tadqiqat aparanlar üçün gözəl bir mənbə hesab olunur.

Həmin illər Məmməd Cavadov teatrla yanaşı Naxçıvan musiqi məktəbində də müəllim işləyirdi. Bu dövrdə Naxçıvan musiqi məktəbində kadr çatışmazlığı var idi. İşlərinin gərgin bir şəraitdə olmasına baxmayaraq, Məmməd müəllim Naxçıvanın mədəniyyətinin müxtəlif sahələrində də fəaliyyət göstərməklə çətinlikləri aradan qaldırmağa çalışırdı. O, hələ gənclik illərində Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarına, "Arşın mal alan" musiqili komediyasına yüksək bacarıqla dirijorluq edirdisə, sözssüz ki, musiqi məktəbində nəzəriyyə və xor dərslərini və eləcə

klarnet ixtisası üzrə dərs verərək musiqi mədəniyyətimizin bütün sahələrinin inkişafı üçün əlindən gələni əsirgəmirdi.

Məmməd müəllimin çoxşaxəli fəaliyyəti bununla bitmir. O, Naxçıvanda bir sıra yaradıcı kollektivlərin təşkil edilməsin də səmərəli işlər görüb. Belə ki, 1946-cı ildən başlayaraq bəstəkar -drijor dəfə olaraq burada Azərbaycan Xalq Çalğı Alətləri Or kestri, Dövlət Caz Orkestri, Sazçı Qızlar Ansamblı yaradır. Belə kollektivlərin yaranması nəticəsində burada çoxlu sayda istedadlı musiqiçilərin, müğənnilərin, saz və rəqs ifaçılarının üzə çıxmasına şərait yaratmışdı. Belə sənətkarlardan nümunə olaraq, onunhəyat yoldaşı müğənni Zərqələm Cavadova, o dövrdə gözəl rəqqasə kimi tanınırdı. Bu illərdə Naxçıvan Musiqili Dram Teatrının əməkdaşı, Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü Sofya xanım Hüseynova və aşıq Mənzər Məmmədovanın dəyərli xidmətləri olmuşdur.

1945-ci ilin sentyabrında Azərbaycan Dövlət Musiqili Məzhəkə teatrının üzvləri Naxçıvana qastrol səfərində olmuşlar. Yaradıcı heyətin Naxçıvan teatrında tamaşaya qoyduqları Z.Hacıbəyovun "Əlli yaşında cavan" əsəri tamaşaçılar tərəfindən böyük hərarətlə qarşılanmışdır. Bu teatrın yaradıcı heyəti Muxtar Respublikamızda olduqları ərəfədə "Ürəkaçanlar", " Məhəbbət gülü", " Qızıl gül" və "Toy kimindir" əsərlərini tamaşaçılar qarşısında nümayiş etdirmişlər.

Böyük vətən müharibəsi dövründə Naxçıvan teatrı tamaşalarını göstərməklə yanaşı, mütəmadü olaraq əsgərlər qarşısında konsertlər təşkil edirdilər. Həmin dövrdə Naxçıvan teatrının bir çox əməkdaşının müharibəyə getməsinə baxmayaraq, teatr öz fəaliyyətini zəiflətmir, əksinə öz ətrafına yeni qüvvələr toplayıb yeni aktyorlar yetişdirdi.

Həmin vaxt Azərbaycan SSR-nin əməkdar artisti görkəmli səhnə ustası Əjdər Sultanov Naxçıvana gəlir və teatrın yaradıcı heyəti ilə görüşür və onun əsas məqsədi M.F.Axundov adına Naxçıvan Dram Teatrında aktyorların hazırladığı "Xırs quldurbasan" əsərinin tamaşasına kömək etməkdən ibarət idi. Ə. Sultanov Naxçıvanda olduğu müddətdə S.S.Axundovun "Eşq və intiqam" , S. Vurğunun "Fərhad və Şirin" əsərində Xosrov rollarını ifa etmişdir.Bu müddətdə böyük səhnə ustası Naxçıvan teatrının gənc aktyorlarının qarşısında aktyor sənətinə dair mühazirələr oxumuşdur[**4, s42].**

Azərbaycan Dövlət dram Teatrı, Azərbaycan SSR Nazirlər Sovetinin "Kənd əhalisinə mədəni xidmətin yüksəltmək haqqında" qərarına əsasən Azərbaycanın bir çox rayonlarına bəii briqadalar və görkəmli sənətkarları göndərilməsi təşkil olunurdu. 1946-cı ildə Rza Əfqanlı Ordubada gəlir. O, Ordubadda olarkən burada teatr tamaşalarının keyfiyyətini artırmaq məqsədi ilə onlara səhnə mədənioyyəti və aktyor sənəti ilə bağlı məsləhətlər verərək, özü də orada tamaşaya qoyulan S.Vurğunun "Vaqif" əsərində Eldar, "Fərhad və Şirin"də Fərhad rolunda oynamışdır.

1946-cı ilin noyabr ayında görkəmli xalq artisti (Murtuza Məmmədov) Naxçıvana gəlir. O, Naxçıvanda olduğu müddətdə teatr əməkdaşları qarşısında və İncəsənət işçilərinin qarşısında duran ən mühüm vəzifələrlə bağlı mühazirələr oxumuşdur. Həmin dövrdə görkəmli sənətkar Bülbül təntənəli konsert mərasimi olmuşdur.Bu konsert uzun müddət tamaşaçıların xatirələrindən silinməmişdir.

1947-ci ilin avqust ayında M.Qorki adına Aərbaycan Gənc Tamaşaçılar Teatrının rus bölməsinin bir qrup aktyorları Naxçvana qastrol səfərinə gəlmişlər. Onlar burada bir neçə tamaşa göstərərək yerli teatr əməkdaşları ilə yaradıcılıq mübadiləsi aparmışdılar.

M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının bir qrup artistləri 1960-cı ilin avqust ayında naxçıvana gələrək yerli teatr əməkadaşları ilə birlikdə Naxçıvan şəhərində "Leyli və məcnun", "Aşq Qərib", "Şah İsmayıl" operalarını teatrsevərlərə göstərmişlər. Tamaşada əsas rolları Azərbaycan SSR-nin xalq artisti və əməkdar artist Gülxar Həsənova ifa etmiş və göstərilən tamaşalarda tanınmış opera müğənnisi Hüsnü Qubadov "Leyli və Məcnun"da İbn-Səlam və "Əsli və Kərəm" rollarında Kərəm rolunun məharətlə oynaması tamaşaçıların böyük rəğbətini qazandırmışdır.

Naxçıvan diyarının qədim bir mədəniyyət tarixinə malik olması böyük sənət adamlarının və mədəniyyət ocaqlarının hər zaman diqqətində olmuşdur.

Beləliklə 1962-ci il iyun ayında M.F. Axundov adına Azərbaycan Dövlət Akademik opera və balet teatrı Naxçıvana qastrola gəlmiş və Z.Hacıbəyovun "Aşıq Qərib" operasını müvəffəqiyyətlə tamaşaya qoyur. Tamaşada baş rollarda çıxış edən artistlər rəqs ifa edənlər öz yüksək ifaçılıq məharətlərini tamaşaçılar qarşısında nümayiş etdirmişlçər.

Böyük opera müğənnisi, Azərbaycab SSR xalq artisti Hüseyinqulu Sarabski Naxçıvana gəlir və bu müddətdə Naxçıvan teatrı kollektivi ilə görüşərək yerli teatr kollektivi ilə birlikdə Ü. Hacıbəyovun "Leyli və MəcnunÜ", "Əsli və Kərəm" , Z. Hacıbəyovun "Aşıq Qərib" operalarında çıxışı naxçıvanlı tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Naxçıvan Dram Teatrı rəhbərliyi Azərbaycan teatr kollektivləri ilə daim əlaqə saxlamış və böyük səhnə ustalarının sənətindən bəhrələnmişlər.

1970- ci il Naxçıvan Dram Teatrının dəvəti ilə Ş. Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının bir qrup artistləri-L. Abdullayev, H.Bağırov, S.Aslan, M.Nuriyev, N. Zeynalova, M. Əhmədov, və başqaları Naxçıvan teatrının kollektivi ilə birlikdə "Məşədi İbad", "Hardasan ay subaylıq", "Toy kimindir", " Məmmədəli kurorta gedir", "Axrı yaxşı olar" əsərlərini tamaşaçılara göstərirlər.

Görkəmli kino-rejissor Nəsir Sadıqzadə Azərbaycanın müxtəlif şəhərlərində teatr əməkdaşları ilə yaxından yaradıcılıq əlaqəsi yaratmış və onlarla birlikdə yeni-yeni tamaşalar səhnəyə qoymuşdur. Nəsir Sadıqzadə naxçıvan teatrında tamaşaya qoyduğu "Yağışdan sonra" səhnə əsəri bu teatrda səhnəyə qoyulan tamaşalar içərisində ən gözəl tamaşa olmuşdur. Nəsir Sadıqzadə əsərin müasirlik pafosunu , ailə, əxlaq və məişət motivlərini əsil məhəbbətə əsaslanan lirik vurğusunu və fəlsəfi dəyərini rəmzi məna çalarlarını yaxşı duymuş, gözəl mizanlar və tapıntılarla səhnəni cilalanmış yaradıcı kollektivlə səmərəli işləyib dolğun mündəricəli tamaşa yaratmağa nail olmuşdur..

1982- ci ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin razılığı ilə Naxçıvana dəvət olunmuş rejissor Ağakişi Kazımov, Şota Rokvanın "Yaşıl papaq" tamaşasışnı yüksək səviyyədə hazırlayaraq teatr həvəskarları və incəsənət işçiləri qarşısında nümayiş etdirmişdir. Bu tamaşa seyricilər tərəfindən hərarətlə alğışlanmışdır.

Ümumiyyətlə belə qənaətə gəlmək olar ki, Naxçıvan teatrı muxtar respublikanın mədəni həyatına dərindən nüfuz etmiş bədii estetik zövqün yüksəldilməsində mühümm rol oynamışdır. Teatrın geniş axtarışları onun öz üzərinə götürdüyü vəzifənin aktuallığından irəli gəlmişdir.

Müasir Naxçıvan teatrının əsas amalı, qayəsi və vəzifələri tamaşaçıların hərtərəfli inkişafına nail olmaqdan, ictimayyətin, ümumiyyətlə muxtar respublika əhalisinin ictimayi ideallarını tərənnüm edən, eybəcərliyə nifrət oyadan ictimayi problemlərin həllinə fəal müdaxilə edən pyesləri, repertüara salmaqdan, vətənpərvərlik ideyalarını təbliğ etməkdən ibarət olmuşdur **[5,s.155].**

XX əsrin əvvəli və sonrakı proseslər xalqımızın tarixində cox zidiyyətli həm də şərəfli bir dövrü əhatə edir. Ötən əsrin 20-ci illərində xalqımızın üzləşdiyi problemlər, tarixi hadisələr əsrin sonunda yenidən təkrar olundu. XX yüzilliyin 20-ci illərində olduğu kimi 90-cı illərində də Azərbaycan xalqı özünün dövlət müstəqilliyini elan etdi.Bundan sonra Azərbaycan xalqı yenə də mənfur düşmənlərimiz olan ermənilər tərəfindən əsassız ərazi iddialarına məruz qaldı.

Tarixi hadisələr zəminində sübut olunmuşdur ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Müstəqil Azərbaycan Dövlətinin qurucusu Heydər Əliyev 1997-ci ilin oktyabr ayının 10-da müstəqillik günü münasibəti ilə Azərbaycan xalqına təbrikində demişdir: "Azərbaycan dövləti müstəqilliyi xalqımızın tarixi naliyyətidir. Hər birimizin müqəddəs borcu müstəqil dövlətimizin qədrini bilmək onu qorumaq inkişaf etdirmək, dünyanın inkişaf etmiş dövlətləri səviyyəsinə qaldırmaqdan ibarətdir".

**Nəticə**

Yarandığı ilk gündən daima bəşəri fikirlərə, mütərəqqi ideyalara, söykənən Naxçıvan teatrı yaratdığı dəyərli tamaşalarla insanlarda saf hisslər gözəl insani sifətlər mübarizlik tərbiyə etməyə çalışmış, xalqın həyatı, mübarizəsi və istək arzuları ilə sıx bağlı olmuşdur.

Yarandığı vaxtdan öz fəaliyyəti ilə xalqa bağlı olmuş Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram teatrımızın əməkdaşları indi də milli səhnə sənətimizin inkişafında var qüvvəsi ilə çalışmaqdadırlar[6,s.451].

**ƏDƏBİYYAT**

1.Cəlil.Vəzirov, Jalə Əliyeva "Sözlü nəğməli Naxçıvan" Bakı sabah nəşriyyatı 2003 s.67.
2.Ə.Qəhrəmanov. Naxçıvan teatrına dair tədqiqlər.Naxçıvan:Əcəmi,2017.s 23.

3.Ə.Qəhrəmanov Naxçıvan teatrı intibah yollarında.1883-1920)Naxçıvan:Əcəmi, 2017.s 109.
4. Naxçıvan Teatrının Salnaməsi. Naxçıvan: Əcəmi,2017. s.291.
5.Naxçıvan Teatrının Salnaməsi. Naxçıvan: Əcəmi,2017. s.155.
6.Rafail Kərimov Naxçıvan musiqi mədəniyyəti tarixindən Bakı-2012 Azərnəşr s.45

***Naxçıvan Dövlət Universiteti,**
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***
***E-mail: Rzayeva.benovse62@gmail.com***

**Benovshe Rzayeva**

## OUTSTANDING ART MASTERS OF AZERBAIJAN IN NAKCHIVAN THEATER

The article provides information about the establishment and development of the Nakhchivan Theater. This temple of art emerged during a time when some forces viewed its creation and operation with skepticism, and there was little faith in the theater's success. Until the early 20th century, the local contributors of the Nakhchivan Theater ensured that this cultural center did not cease to exist; instead, they enabled its continued activity. Under such circumstances, prominent Azerbaijani stage masters also contributed to the theater's launch and development.At that time, the connection between composer Zulfugar Hajibeyov and the Nakhchivan Theater, as well as his direct involvement in Nakhchivan and collaboration with the theater staff in preparing performances, created a sense of love and attachment between the people and theatrical art.During this period, the theater's activities, including the staging and performance of plays, held significant importance. Prominent artists of the Azerbaijani theater scene, such as Mirzaaga Aliyev, Sidgi Ruhulla, Zulfugar Hajibeyov (the eldest son of the Hajibeyovs), and the great composer Uzeyir Hajibeyov, elevated the spiritual development of musical theater art in Nakhchivan to a new level. These outstanding artists staged various works at the Nakhchivan Theater, successfully strengthening the bond between the people and the theater.The contributions of notable figures like Eynali bey Sultanov, Mahammad Tagi Sidgi, Jalil Mammadguluzadeh, and Aliqulu Gamkusar to the foundation and development of this theater are invaluable.The late 1920s marked a cultural revolution in Nakhchivan with the appearance of women on the theater stage, ending the practice of men performing female roles.In general, the people's close connection with the theater not only reflected their way of thinking but also positively influenced their spiritual development. Consequently, the staging of works by prominent Azerbaijani artists and local theater contributors in Nakhchivan significantly enhanced the aesthetic demand for musical art in this ancient cultural region and increased interest in and enthusiasm for the stage.The continuous collaboration of prominent Azerbaijani stage masters with this cultural institution played a vital role in the formation and development of the Nakhchivan Theater as a temple of art, which is thoroughly reflected in the article.

**Keywords:** *Nakhchivan, theater, actor, intellectual, outstanding artists, play, director, work.*

**Бановша Рзаева**

## ВЫДАЮЩИЕСЯ МАСТЕРА ИСКУССТВА АЗЕРБАЙДЖАНА В НАХЧЫВАНСКОМ ТЕАТРЕ

В статье представлена информация о создании и формировании Нахчыванского театра. Создание этого храма искусства совпало с периодом, когда некоторые силы скептические относились к созданию и функционированию данного театра, и вера в его существование

здесь была очень мала. Вплоть до начала XX века местные работники Нахчыванского театра не позволяли этому очагу угасать, а наоборот добивались его функционирования. В такое время установление связи с Нахчыванским театром композитора Зульфигара Гаджибекова, его непосредственный приезд в Нахчыван, подготовка спектаклей совместно с колективом этого театра, создают любовь, привязанность к театральному искуксству между народом и театром. В этот период в результате деятельности театра особое значение имели инсценирование и постановка спектаклей. Бесценные мастера азербайджанской театральной сцены Мирзага Алиев, Сидги Рухулла, старший сын Гаджибековых, гениальный композитор Узеир Гаджибеков подняли духовное развитие музыкального театрального искусства Нахчывана на новый уровень. Этим великим мастерам искусства удалось укрепить связи между народом и театром, поставив ряд произведений в Нахчыванском театре. В создании и развитиии этого театра бесценны заслуги таких великих мастеров слова, как Эйнали бек Султанов, Мухаммед Таги Сидги, Джалил Мамедкулизаде, Алигулу Гамкусар. Появление женщин на театральной сцене в конце 1922 года в Нахчыване, прекращение исполнения мужчинами женских ролей расценивается как культурная революция. В целом, тесная связь народа с театром положительно влияло как на их образ мышления, так и на нравственн формирование. Таким образом, постановка произведений в Нахчыванском театре со стороны видных мастеров искусства Азербайджана и работниками местного театра значительно усилила эстетический спрос на музыкальное искусство в этой древней стране культуры, повысила интерес и стремление к сцене. Таким образом, в статье отражены последовательная связь, постоянный контакт выдающихся мастеров сцены Азербайджана с этим центром искусства и как эти отношения сформировали Нахчыванский театр в качестве храма искусства и дали толчок его развитию.

**Ключевые слова:** *Нахчыван, театр, актер, интеллигент, выдающиеся мастера, спектакл, режиссер, произведение*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.02.2025**
**Son daxilolma tarixi:11.03.2025**